| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 03.06.2005 |
| QEYDİYYAT NÖMRƏSİ | 248 |
| ADI | “Dövlət sirrinə aid edilən məlumatların Siyahısı”nın təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-06-2005, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 485) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 03.06.2005 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 350.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**“Dövlət sirrinə aid edilən məlumatların Siyahısı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Dövlət sirrinə aid edilən məlumatların Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 23 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, 11, maddə 665; 1999-cu il, 2, maddə 66, 8, maddə 182; 2001-ci il, 12, maddə 755; 2003-cü il, 10, maddələr 546, 571, 585; 2004-cü il, 1, maddə 19; Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 193 nömrəli və 19 aprel tarixli 224 nömrəli Fərmanları) 1-ci bəndinin üçüncü abzası və həmin Fərmanla təsdiq edilmiş “Dövlət sirrinə aid edilən məlumatların Siyahısı” qüvvədən düşmüş hesab edilsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 iyun 2005-ci il
248

Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət sirrinə aid edilən məlumatların**

**S İ Y A H I S I** [1]

**I. ÜMUMİ MÜDDƏALAR**

1. Dövlət sirrinə aid edilən məlumatların Siyahısı (bundan sonra - Siyahı) “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib edilmişdir. Siyahı ilə dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə olunan və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlar, habelə həmin məlumatlar barədə sərəncam vermək səlahiyyətlərinə malik olan dövlət hakimiyyəti orqanları müəyyən edilir.

Siyahıda göstərilən dövlət hakimiyyəti orqanlarından hər biri qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində sahə, idarə və ya proqram mənsubiyyətli məlumatlar barədə, habelə digər məlumat mülkiyyətçilərinin təqdim etdikləri uyğun məlumatlar barədə sərəncam vermək səlahiyyətlərinə malikdirlər.

2. Siyahıda aşağıdakı anlayışlardan və akronimlərdən istifadə edilir:

“rejimli obyektlər” - fəaliyyətləri üçün əlavə təhlükəsizlik tədbirləri müəyyən edilmiş hərbi və xüsusi obyektlər, hərbi hissələr, müəssisə, idarə və təşkilatlar;

“hərbi obyektlər” - qoşunların döyüş mövqeləri, idarəetmə məntəqələri, poliqonları, rabitə qovşaqları, radiotexniki sistemləri, bazaları, anbarları və hərbi təyinatlı digər qurğuları;

“xüsusi obyektlər” - müharibə dövründə dövləti və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini idarəetmə məntəqələri, habelə Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının fəaliyyətini təmin edən digər obyektlər;

“müəssisə və təşkilatlar” - mülkiyyət növündən asılı olmayaraq, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun yaradılan hüquqi şəxslər, habelə onların filial və nümayəndəlikləri;

“qoşunlar” - Azərbaycan Respublikasının Silahlı Qüvvələri və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış digər silahlı birləşmələr;

“silah” - düşmən canlı qüvvəsini, texnikasını, qurğularım və digər obyektlərini məhv etmək üçün nəzərdə tutulmuş vasitələr, onların tərkib hissələri və dəstləşdirici məmulatları;

“hərbi texnika” - qoşunların fəaliyyətinin döyüş, texniki və arxa təminatı üçün nəzərdə tutulmuş texniki vasitələr, habelə bu vasitələrə nəzarət etmək və onların sınağı üçün nəzərdə tutulan avadanlıqlar və cihazlar, onların tərkib hissələri və dəstləşdirici məmulatları;

“dövlət mühafizəsi obyektləri” - dövlət tərəfindən mühafizə edilməli şəxslər;

“mühafizə olunan obyektlər” - dövlət hakimiyyəti orqanlarının yerləşdiyi binalar, tikililər və qurğular, həmin binalara, tikililərə və qurğulara bitişik olan, dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə qorunmalı olan ərazilər və akvatoriyalar, habelə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin sərəncamında olan binalar, tikililər, qurğular, onlara bitişik olan ərazilər və akvatoriyalar;

*DTX - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti;*[2]

MN - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi;

DİN - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

XDMX - Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti;

DSX - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti;

SHXÇDX - Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti;[3]

*XKX - Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti.*[4]

**II. HƏRBİ SAHƏDƏ MƏLUMATLAR**[5]

| **Dövlət sirrinə aid edilən məlumatlar** | **Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları** |
|---|---|
| **1** | **2** |
| 1. Qoşunlardan istifadənin strateji planlanın, əməliyyat planlarını, döyüşü idarəetməyə dair sənədləri, qoşunların müxtəlif dərəcəli döyüş hazırlığı vəziyyətinə gətirilməsi üzrə sənədləri, onların strateji və əməliyyat planlan üzrə düzülməsini, quruculuq planlarını, döyüş hazırlığını, hərbi-siyasi və (və ya) əməliyyat şəraitini, əməliyyat (döyüş) hazırlığı vəziyyətini, fəaliyyətinin təminatlığını, səfərbərlik hazırlığını, *dövlət və* səfərbərlik ehtiyatlarının yaradılmasını və istifadəsini, qoşunları idarəetmə sistemlərinin tərkibini və (və ya) vəziyyətini, qoşunların səfərbərlik üzrə düzülməsini, səfərbərlik üzrə düzülməsini idarəetmə sistemini (və ya) onların şəxsi heyətlə, silah, hərbi texnika və başqa maddi vasitələrlə, maliyyə vəsaiti ilə, habelə hərbi daştmalarla təmin olunma imkanlarını, Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olaraq açıq bildirilməli olmayan qoşunların dislokasiyasını, həqiqi adını, təşkilati strukturunu, şəxsi heyətinin sayını, döyüş tərkibini və ya miqdarını açıqlayan məlumatlar | MN, *DTX, XKX,* DİN, DSX, SHXÇDX, XDMX, Azərbaycan Respublikasının *İqtisadiyyat* Nazirliyi (bundan sonra – *İqtisadiyyat* Nazirliyi), Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (bundan sonra – Fövqəladə Hallar Nazirliyi), *Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi (bundan sonra – Dövlət Ehtiyatları Agentliyi)*[6] |
| 2. Silah və hərbi texnikanın inkişafının istiqamətlərini, uzunmüddətli proqnozlarını və ya planlarını, silah və hərbi texnika nümunələrinin yaradılması və ya modernləşdirilməsi üzrə aparılan məqsədli proqramların, elmi tədqiqat, təcrübi-konstruktor işlərinin məzmununu və ya yerinə yetirilməsinin nəticələrini, onların taktiki-texniki xarakteristikalarmı, silah və hərbi texnikanın konstruksiyasını, istehsal texnologiyasını, döyüş, fiziki və kimyəvi xüsusiyyətlərini, tətbiqi və ya istismar qaydalarını açıqlayan məlumatlar | MN, *DTX, XKX,* DİN, DSX, XDMX, Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası (bundan sonra - Milli Elmlər Akademiyası), Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra - Təhsil Nazirliyi), Fövqəladə Hallar Nazirliyi |
| 3. Bakterial və ya tibbi mühafizə vasitələrinin tədarükünə dair plan və ya faktiki göstəriciləri açıqlayan məlumatlar | MN, *DTX, XKX,* DİN, DSX, XDMX, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra - Səhiyyə Nazirliyi), Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra - Ekologiya və Təbii Sərvətlər Nazirliyi), Fövqəladə Hallar Nazirliyi |
| 4. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrindəki öhdəliklərinin şamil edilmədiyi rejimli obyektlərin dislokasiyası, təyinatı, hazırlığı və ya mühafizə olunma dərəcəsi, tikintisi və istismarı, göstərilən obyektlərin tikintisi üçün torpaq sahələrinin, yerin təkinin və ya akvatoriyaların ayrılması, həmçinin bu obyektlərin yaradılması ilə əlaqədar planlaşdırılan və ya aparılan axtarış, layihə və s. işlər haqqqında məlumatlar | *DTX, XKX,* MN, DİN, DSX, XDMX, *İqtisadiyyat* Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Respublikasının *Əmlak Məsələləri Dövlət Komitəsi* (bundan sonra - *Əmlak Məsələləri Dövlət Komitəsi*), Fövqəladə Hallar Nazirliyi[7] |
| 5. Dövlətin müdafiə qabiliyyəti və təhlükəsizliyinin təmin olunması mənafeyi naminə Azərbaycan Respublikası rabitə sisteminin qarşılıqlı əlaqələndirilmiş şəbəkəsinin istifadəsini və ya inkişafının perspektivlərini, hərbi və ya xüsusi təyinatlı radioelektron vasitələr üçün radiotezlikli zolaqların ayrılmasını və istifadə edilməsini, qoşunların bütün növ rabitə, radiolokasiya, radiotexniki təminatının təşkilini və ya fəaliyyətini açıqlayan məlumatlar | *DTX, XKX,* MN, DİN, DSX, XDMX, Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* (bundan sonra - *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi*) |
| 6. Beynəlxalq müqavilələrin predmeti olmayan mühüm müdafiə və ya iqtisadi əhəmiyyətli topoqrafiya, geodeziya və ya kartoqrafiya fəaliyyətinin nəticələrini açıqlayan məlumatlar | MN, DSX, *Əmlak Məsələləri Dövlət Komitəsi*, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (bundan sonra - Dövlət Neft Şirkəti), Azərbaycan Respublikasının Energetika Nazirliyi (bundan sonra - Energetika Nazirliyi), Ekologiya və Təbii Sərvətlər Nazirliyi[8] |
| **III. XARİCİ SİYASƏT SAHƏSİNDƏ MƏLUMATLAR** | |
| **Dövlət sirrinə aid edilən məlumatlar** | **Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları** |
| 7. Xarici-siyasi, xarici-iqtisadi, elmi-texniki əlaqə məsələləri üzrə dövlətin strategiyasını və taktikasını açıqlayan məlumatlar, əgər onların vaxtından əvvəl yayılması Azərbaycan Respublikasının mənafeyinə ziyan vura bilərsə | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (bundan sonra - Xarici İşlər Nazirliyi), *İqtisadiyyat* Nazirliyi, MN, DSX, Milli Elmlər Akademiyası, Müdafiə Sənayesi Nazirliyi |
| 8. Bir və ya bir neçə xarici dövlətə və beynəlxalq təşkilata aid siyasi, hərbi, elmi-texniki və ya iqtisadi məsələlərə dair etibarlılıq əsasında əldə edilmiş məlumatlar, əgər onların yayılması həmin məlumatların mənbəyinin müəyyən edilməsinə səbəb ola bilərsə | Xarici İşlər Nazirliyi, *İqtisadiyyat* Nazirliyi, *DTX, XKX,* MN, DSX, SHXÇDX, Milli Elmlər Akademiyası, Müdafiə Sənayesi Nazirliyi, Dövlət Neft Şirkəti, Energetika Nazirliyi |
| 9. Beynəlxalq münasibətlərdə vahid prinsipial mövqe işləyib hazırlamaq barədə Azərbaycan Respublikasının nümayəndələri ilə digər dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri arasında danışıqlar haqqında məlumatlar, əgər danışıq iştirakçılarının fikrinə görə, həmin məlumatların yayılması tərəflərdən heç olmasa biri üçün diplomatik fəaliyyətinin həyata keçirilməsində çətinlik yaranmasına səbəb ola bilərsə | Xarici İşlər Nazirliyi, *DTX, XKX,* MN, DSX, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (bundan sonra - Ədliyyə Nazirliyi) |
| 10. Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğv olunması, onların məzmunu haqqında məlumatlar, əgər həmin məlumatların vaxtından əvvəl açıqlanması Azərbaycan Respublikasının müdafiə qabiliyyətinə, təhlükəsizliyinə, siyasi və ya iqtisadi mənafelərinə ziyan vura bilərsə | Xarici İşlər Nazirliyi, *DTX, XKX, İqtisadiyyat* Nazirliyi, MN, DSX, XDMX, Ədliyyə Nazirliyi |

| | |
|---|---|
| 11. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla hərbi, elmi-texniki və başqa sahələrdə əməkdaşlığı, silah və hərbi texnikanın idxalı və ixracı, onların təmiri və istismarı haqqında, həmçinin silahların, hərbi texnikanın, hərbi və hərbi sənaye obyektlərinin yaradılmasında göstərilən və ya alman texniki yardım haqqında məlumatlar, əgər həmin məlumatların vaxtından əvvəl açıqlanması tərəflərdən heç olmasa biri üçün diplomatik fəaliyyətinin həyata keçirilməsində çətinlik yaranmasına səbəb ola bilərsə | Xarici İşlər Nazirliyi, MN, Müdafiə Sənayesi Nazirliyi, DSX, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra - Dövlət Gömrük Komitəsi), DİN, *İqtisadiyyat* Nazirliyi |
| **IV. İQTİSADİ SAHƏDƏ MƏLUMATLAR**[9] | |
| **Dövlət sirrinə aid edilən məlumatlar** | **Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları** |
| 12. Azərbaycan Respublikası iqtisadiyyatının müharibə dövründə sabit fəaliyyət göstərməyə hazırlığını müəyyən edən göstəricilər haqqın-da məlumatlar | *DTX, XKX,* MN, *İqtisadiyyat* Nazirliyi, DİN, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (bundan sonra - Maliyyə Nazirliyi), Təhsil Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* (bundan sonra - *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi*), Energetika Nazirliyi, Dövlət Neft Şirkəti, Fövqəladə Hallar Nazirliyi, ~~Dövlət Mülki Aviasiya Administrasiyası (bundan sonra - DMAA)~~[10] |
| 13. Azərbaycan Respublikası infrastrukturundan onun müdafiə qabiliyyəti və təhlükəsizliyinin təmin olunması mənafeyi naminə istifadə haqqında məlumatlar | MN, *DTX, XKX,* DİN, DSX, SHXÇDX, XDMX, *İqtisadiyyat* Nazirliyi, *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi*, Fövqəladə Hallar Nazirliyi ~~DMAA~~ |
| 14. İqtisadiyyatın müxtəlif sahələrində prinsipcə yeni məmulatların, texnoloji proseslərin yaradılmasında istifadə oluna biləcək elm və texnika sahəsində en yeni nailiyyətlərin mahiyyətini açıqlayan, habelə silah və hərbi texnikanın, onların döyüş səmərəliliyinin yüksəldilməsi imkanlarının keyfiyyətcə yeni səviyyəsini müəyyən edən məlumatlar, əgər həmin məlumatların yayılması dövlətin mənafeyinə ziyan vura bilərsə | *DTX, XKX,* MN, *İqtisadiyyat* Nazirliyi, DSX, Təhsil Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Milli Elmlər Akademiyası, DİN, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra - Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi) |
| 15. Dövlətin müdafiə və təhlükəsizlik mənafeyi naminə aparılan elmi tədqiqat, təcrübə-konstruktor və ya layihə işlərinin məzmununu və (və ya) təmayülünü, həmin işlər üzrə xərcləri açıqlayan məlumatlar | *İqtisadiyyat* Nazirliyi, *DTX, XKX,* MN, DSX, Maliyyə Nazirliyi, Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi, Milli Elmlər Akademiyası, Energetika Nazirliyi |
| 16. Silahların, hərbi texnikanın, xüsusi obyektlərin yaradılması üzrə aparılan elmi tədqiqat, təcrübə-konstruktor işlərinə, habelə rejimli obyektlərin layihələndirilməsinə, tikintisinə və ya yenidən qurulmasına, silah və hərbi texnikanın yaradılmasına, istehsalına və ya təmirinə ayrılmış təxsisatları və ya faktiki xərcləri açıqlayan məlumatlar | MN, *DTX, XKX,* XDMX, DSX, DİN, *İqtisadiyyat* Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi, Milli Elmlər Akademiyası, Fövqəladə Hallar Nazirliyi |
| 17. Dövlət müdafiə sifarişi planlarını (tapşırıqlarını), silah və hərbi texnikanın istehsal həcmini, onların buraxılışının istehsal gücünü açıqlayan məlumatlar. Müəssisələrin kooperasiya əlaqələri, silah və hərbi texnikanı işləyib hazırlayanlar və ya onların istehsalçıları haqqında məlumatlar, əgər həmin məlumatlar silah və hərbi texnika buraxılışının istehsal gücünə dair göstəriciləri və (və ya) silah və hərbi texnikanın əsas taktiki-texniki xüsusiyyətlərini açıqlayırsa | MN, *DTX, XKX,* XDMX, DSX, *İqtisadiyyat* Nazirliyi, Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi, Milli Elmlər Akademiyası, Fövqəladə Hallar Nazirliyi |
| 18. Silah və hərbi texnikanın metroloji təminat vəziyyətini, onların keyfiyyətcə yeni səviyyəsini müəyyənləşdirən hərbi etalonların və ya metroloji təminat vasitələrinin texniki və ya metroloji xüsusiyyətlərini, silah və hərbi texnika sahəsində standartlaşdırmanın əsas istiqamətlərini və ya inkişaf proqramlarını, habelə standartların məzmununu açıqlayan məlumatlar | MN, Müdafiə Sənayesi Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi[11] |
| 19. Azərbaycan Respublikası iqtisadiyyatının səfərbərlik planının struktur təşkilini və ya göstəricilərini, habelə mərkəzi icra hakimiyyəti orqanlarının və ya ayrı-ayrı təşkilatların səfərbərliyə hazırlıq vəziyyətini, dövlət ~~ehtiyatlarının~~ və (və ya) səfərbərlik ehtiyatlarının dislokasiyasını, faktiki miqdarını, onlardan istifadəni, sənayenin səfərbərlik hazırlığı sahəsində aparılan elmi tədqiqat işlərinin planlarını, məzmununu və ya nəticələrini açıqlayan məlumatlar | *İqtisadiyyat* Nazirliyi, MN, DSX, SHXÇDX, Milli Elmlər Akademiyası və aidiyyəti olan orqanlar, Fövqəladə Hallar Nazirliyi, *Dövlət Ehtiyatları Agentliyi*[12] |
| 20. Silah və hərbi texnikanın istehsalı və təmiri, ümumi tətbiq təyinatlı məhsulların, strateji növlü xammal və materialların istehsalı üzrə səfərbərlik gücləri, həmin güclərin yaradılması və (və ya) inkişafı (saxlanılması), silah, hərbi texnika və səfərbərlik planına daxil edilən əsas növ ümumi tətbiq təyinatlı məhsullara dair sənədlərin sığorta fondlarının vəziyyəti və saxlama yerləri haqqında məlumatlar | MN, *İqtisadiyyat* Nazirliyi, Maliyyə Nazirliyi, Müdafiə Sənaye Fövqəladə Hallar Nazirliyi si Nazirliyi , |
| 21. Yanacağın strateji növlərinin müdafiə və təhlükəsizlik məqsədləri üçün göndərilməsinin və ehtiyatlarının həcmlərini açıqlayan məlumatlar | MN, *DTX, XKX, İqtisadiyyat* Nazirliyi, Energetika Nazirliyi, Dövlət Neft Şirkəti |
| 22. Kənd təsərrüfatı məhsullarının strateji növlərinin müdafiə və təhlükəsizlik məqsədləri üçün buraxılışının və ya göndərilməsinin həcmlərini açıqlayan məlumatlar | MN, *DTX, XKX,* Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, *İqtisadiyyat* Nazirliyi |

| | |
|---|---|
| 23. Nəqliyyat şəbəkəsinin və nəqliyyat vasitələrinin hərbi məqsədlər üçün hazırlığını, vəziyyətini, təchizatını, habelə hərbi yükdaşımaların təşkilini və həcmini, silah və hərbi texnikanın nəql olunması marşrutlarını, yollarda hərəkətin təhlükəsizliyinin və ya yüklərin qorunmasının təmin edilməsi üzrə rabitə və ya idarəetmə sistemlərinin təşkilini və (və ya) fəaliyyətini, habelə bu məqsəd üçün görülən xüsusi tədbirləri, yükdaşımaların təmin olunması üzrə yolların (dəmiryolların) imkanlarını və (və ya) səfərbərlik ehtiyatlarını, qoşunların yükləmə və ya boşaltma məntəqələrinin dislokasiyasını, ixtisaslaşmasını, güclərini və (və ya) buraxılış qabiliyyətini, həmin məntəqələrə ərzaq, tibbi-sanitar xidmətinin göstərilməsi barədə göstəriciləri açıqlayan məlumatlar | MN, *DTX, XKX,* DİN, XDMX, DSX, SHXÇDX, *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat* Nazirliyi, Səhiyyə Nazirliyi ~~DMAA~~ |
| 24. Nəqliyyat vasitələri, o cümlədən nəqliyyatın ayrı-ayrı növləri üzrə səfərbərlik tələbatını və (və ya) təminatını açıqlayan məlumatlar | *DTX, XKX,* MN, DSX, SHXÇDX, DİN, *İqtisadiyyat* Nazirliyi, *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,* Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi ~~DMAA~~ |
| 25. Bütövlükdə Azərbaycan Respublikası üzrə mülki müdafiə qüvvələrinin və ya vasitələrinin vəziyyəti, əhalinin təhlükəsizliyinin təmin olunma dərəcəsi, ölkənin müdafiə maraqları üçün istifadə oluna bilən dağ-mədən yerləri, təbii qoruqlar, metropoliten və ya digər qurğular, habelə iri şəhərlərin su təchizatı sxemləri və (və ya) su kəmərlərinin əsas qurğularının və ya onları qidalandıran qurğuların yerləşdiyi yer haqqında məlumatlar | *DTX, XKX,* XDMX, MN, *İqtisadiyyat* Nazirliyi, *Əmlak Məsələləri Dövlət Komitəsi,* Ekologiya və Təbii Sərvətlər Nazirliyi, *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,* Fövqəladə Hallar Nazirliyi |
| 26. Bütövlükdə Azərbaycan Respublikası və ya beynəlxalq müqavilələrin predmeti olmayan ayrı-ayrı iri yataqlar üzrə faydalı qazıntıların strateji növlərinin (~~neft, neftdə həll olmuş qaz~~, tantal, niobium, berillium, litium, ittrium qrupuna daxil olan nadir metallar, uran, torium, xüsusi təmiz kvars xammalı) yerin təkindəki sənaye ehtiyatları haqqında məlumatlar[13] | *İqtisadiyyat* Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ~~Dövlət Neft Şirkəti~~, Energetika Nazirliyi, Fövqəladə Hallar Nazirliyi[14] |
| 27. Xarici borclara dair ümumiləşdirilmiş göstəricilər istisna olmaqla Azərbaycan Respublikasının xarici dövlətlərlə nizama salınmamış haqq-hesablarını və ya müharibə dövründə bütövlükdə Azərbaycan Respublikasının xarici ölkələrlə ödəmə balansını açıqlayan məlumatlar | Xarici İşlər Nazirliyi, *İqtisadiyyat* Nazirliyi, Maliyyə Nazirliyi, Mərkəzi Bank |
| 28. Maliyyə və (və ya) pul-kredit fəaliyyəti haqqında məlumatlar, əgər həmin məlumatların vaxtından əvvəl yayılması dövlətin təhlükəsizliyinə ziyan vura bilərsə | Maliyyə Nazirliyi |
| 29. Rəsmi dərc edilənə qədər pul banknotlarının yeni nümunələri və ya sikkələrin layihələri (yubiley və xatirə sikkələri istisna olmaqla), Azərbaycan Respublikası Milli Bankının banknotlarının saxtalaşdırmadan qorunmasını təmin edən üsullar haqqında məlumatlar | Mərkəzi Bank, Maliyyə Nazirliyi, *DTX, XKX,* DİN[15] |
| 30. Silah və hərbi texnikanın yaradılması, istehsalı və (və ya) istismarı zamanı yaranan fiziki-kimyəvi hadisələri (sahələri), onların mühafizə olunan parametrlərini açıqlayan məlumatlar | *DTX, XKX,* MN, DİN, DSX, *İqtisadiyyat* Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Fövqəladə Hallar Nazirliyi |
| **V. KƏŞFİYYAT, ƏKS-KƏŞFİYYAT, ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİ SAHƏSİNDƏ MƏLUMATLAR** | |
| **Dövlət sirrinə aid edilən məlumatlar** | **Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları** |
| 31. Dövlət sirrinin mühafizəsinin təşkilini və ya faktiki vəziyyətini açıqlayan məlumatlar | Dövlət sirinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanları |
| 32. Dövlət sirri təşkil edən məlumatların mühafizəsi, informasiyanın icazəsiz müdaxilədən, xarici kəşfiyyatlardan və texniki kanallarla sızmadan mühafizəsi üzrə planlaşdırılan və (və ya) həyata keçirilən tədbirlərin üsul və vasitələrini açıqlayan məlumatlar, habelə bu fəaliyyətin maliyyələşdirilməsi haqqında məlumatlar, əgər onlar sadalanan məlumatları açıqlayırsa. Şifrlənmiş, o cümlədən kodlaşdırılmış və məxfiləşdirilmiş rabitə sistemləri haqqında, şifrlər, şifrlərin işlənilməsi və hazırlanması, onlarla təminat, şifrləmə və xüsusi mühafizə vasitələri haqqında, xüsusi təyinatlı informasiya-təhlil sistemləri haqqında məlumatlar | *DTX, XKX,* MN, XDMX, DSX, *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,* Maliyyə Nazirliyi[16] |
| 33. Dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin olunmasının təşkilini, qüvvələrini, vasitələrini və üsullarını açıqlayan məlumatlar, habelə həmin obyektlərin təhlükəsizliyinin təmsin olunması üçün maliyyələşdirməyə dair göstəricilər, əgər onlar yuxanda göstərilən məlumatları açıqlaya bilərsə | XDMX, *DTX, XKX,* Maliyyə Nazirliyi |
| 34. Kəşfiyyat, əks-kəşfiyyat və ya əməliyyat-axtarış fəaliyyətinin təşkilini, mənbələrini, qüvvələrini, planlarını, vasitələrini, üsullarını, vəziyyətini və ya nəticələrini açıqlayan məlumatlar, habelə həmin fəaliyyət növlərinin maliyyələşdirilməsinə dair göstəricilər, əgər onlar yuxanda göstərilən məlumatları açıqlaya bilərsə. Kəşfiyyat, əks-kəşfiyyat, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla konfedensial əsaslarla əməkdaşlıq edən və ya etmiş şəxslər haqqında məlumatlar. Əməliyyat-səfərbərlik işinin vəziyyətini, nəticələrini, habelə tədbirlərini açıqlayan məlumatlar | *DTX, XKX,* MN, DSX, DİN, XDMX, Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Respublika Prokurorluğu), Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi (bundan sonra - Vergilər Nazirliyi), Maliyyə Nazirliyi[17] |
| 35. Konkret şəxslərin kəşfiyyat, əks-kəşfiyyat, mütəşəkkil cinayətkarlıqla mübarizə və ya əməliyyat-axtarış bölmələrinin kadr heyətinə mənsubluğunu, habelə həmin orqanların əməliyyat-axtarış və əməliyyat-texniki tədbirlərini, dövləti cinayətlərlə bağlı cinayət işləri üzrə aparılan istintaqın qüvvələrini, vasitələrini və üsullarını açıqlayan məlumatlar | *DTX, XKX,* MN, XDMX, DİN, DSX, Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, Respublika Prokurorluğu |
| 36. Rabitə vasitələrinin radioelektron kəşfiyyatı orqanlarının fəaliyyətinin qüvvələrini, planlarını, vasitələrini, üsullarını, vəziyyətini və ya fəaliyyətinin nəticələrini açıqlayan məlumatlar, habelə həmin orqanların fəaliyyətinin maliyyələşdirilməsinə dair göstəricilər, əgər onlar yuxanda göstərilən məlumatları açıqlaya bilərsə | *DTX, XKX,* MN, XDMX, DSX, Maliyyə Nazirliyi |
| 37. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti orqanlarının fəaliyyətinin əsas istiqamətlərinin məzmununu, təşkilini və ya nəticələrini, Azərbaycan Respublikası dövlət sərhədlərinin mühafizəsinin quruluşunu açıqlayan məlumatlar | DSX, *DTX, XKX,* |

| | | |
|---|---|---|
| 38. | Ümumiləşdirilmiş göstəricilər istisna olmaqla, dövlət büdcəsinin Azərbaycan Respublikası müdafiəsinin, təhlükəsizliyinin, hüquq mühafizə fəaliyyətinin təmin olunması ilə bağlı məxaricini, icra hakimiyyəti orqanlarının smetalarındakı ayrı-ayrı maddələr üzrə pul vəsaitinin qoşunların saxlanılması üçün xərclənməsini açıqlayan məlumatlar | MN, *DTX, XKX,* DİN, XDMX, DSX, *İqtisadiyyat* Nazirliyi, Maliyyə Nazirliyi |
| 39. | Dövlətin təhlükəsizlik mənafeyi naminə kadrların hazırlanması və yerləşdirilməsi üzrə tədbirləri açıqlayan məlumatlar | *DTX, XKX,* MN, DSX, SHXÇDX, XDMX |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 29 noyabr 2006-cı il tarixli 486 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 948**)
2. 11 noyabr 2008-ci il tarixli 13 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 19 noyabr 2008-ci il, 259, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 969**)
3. 14 aprel 2009-cu il tarixli 81 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 19 aprel 2008-ci il, 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 04, maddə 226)**
4. 30 oktyabr 2009-cu il tarixli **172** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 1 noyabr 2009-cu il, 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 785)**
5. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)**
6. 19 dekabr 2012-ci il tarixli **768** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti 21 dekabr 2012-ci, 285, "Azərbaycan" qəzeti 22 dekabr 2012-ci, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1242 )**
7. 3 may 2013-cü il tarixli **873** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti 4 may 2013-cü, 94, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 494)**
8. 27 dekabr 2013-cü il tarixli **71** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 28 dekabr 2013-cü il, 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1538**)
9. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı ( **"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
10. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644)**
11. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027)**
12. 15 fevral 2016-cı il tarixli **787** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 21 fevral 2016-cı il, 40; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 251)**
13. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384)**
14. 8 may 2017-ci il tarixli **1371** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 may 2017-ci il, 102 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 775)**
15. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)**
16. 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840)**
17. 10 fevral 2022-ci il tarixli **1595** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 11 fevral 2022-ci il, 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 106)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 29 noyabr 2006-cı il tarixli 486 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 948**) ilə II bölmənin 2-ci və 4-cü, III bölmənin 7-ci, 8-ci və 11-ci, IV bölmənin 12-ci, 14-18-ci, 20-ci və 30-cu bəndlərində "**Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi**" sözləri "**Müdafiə Sənayesi Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

II bölmənin 3-cü bəndindən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Material Ehtiyatları Komitəsi (bundan sonra - Dövlət Material Ehtiyatları Komitəsi)," sözləri, IV bölmənin 12-ci və 19-cu bəndlərindən "Dövlət Material Ehtiyatları Komitəsi" sözləri çıxarılmışdır.

II bölmənin 1-ci bəndinə "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (bundan sonra - Fövqəladə Hallar Nazirliyi)" sözləri, həmin bölmənin 2-ci, 3-cü və 4-cü, IV bölmənin 12-ci, 13-cü, 16-cı, 17-ci, 19-cu, 20-ci, 24-cü, 25-ci və 30-cu bəndlərinə "Fövqəladə Hallar Nazirliyi" sözləri əlavə edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın IV hissəsinin 12-ci bəndində (hər iki halda), 13-cü, 23-25-ci bəndlərində "**Nəqliyyat Nazirliyi**" sözləri, II hissəsinin 5-ci bəndində (hər iki halda) və V hissəsinin 32-ci bəndində "**Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** " sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** " sözləri ilə əvəz edilmişdir.

[2] 8 may 2017-ci il tarixli **1371** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 may 2017-ci il, 102 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 775)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın I hissənin 2-ci bəndinin on birinci abzasında "**MTN - Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi** " sözləri "**DTX - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti** " sözləri ilə əvəz edilmişdir.

[3] 27 dekabr 2013-cü il tarixli **71** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 28 dekabr 2013-cü il, 287 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1538**)) ilə I hissənin 2-ci bəndinin on beşinci abzasında "Dövlət Sərhəd Xidməti" sözlərindən sonra nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda on altıncı abzas əlavə olunmuşdur.

[4] 8 may 2017-ci il tarixli **1371** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 may 2017-ci il, 102 , Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 775)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın I hissənin 2-ci bəndinin on n altıncı abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda on yeddinci abzas əlavə edilmişdir.

[5] 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın II hissəsinin 1-ci (hər iki halda) və 4-cü bəndlərində, III hissəsinin 7, 8, 10 və 11-ci bəndlərində, IV hissəsinin 12-17, 19-27 və 30-cu bəndlərində, V hissəsinin 38-ci bəndində "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın II hissəsinin 1-ci (hər iki halda) və 4-cü bəndlərində, III hissəsinin 7-ci, 8-ci, 10-cu və 11-ci bəndlərində, IV hissəsinin 12-17-ci, 19-27-ci və 30-cu bəndlərində, V hissəsinin 38-ci bəndində "**İqtisadiyyat və Sənaye**" sözləri "**İqtisadiyyat**" sözü ilə əvəz edilmişdir.

8 may 2017-ci il tarixli **1371** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 may 2017-ci il, 102 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 775)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın II hissənin 1-ci – 5-ci bəndlərində, III hissənin 8-ci – 10-cu bəndlərində, IV hissənin 12-ci – 17-ci, 21-ci – 25-ci, 29-cu, 30-cu bəndlərində, V hissənin 32-ci – 39-cu bəndlərində "**MTN**," akronimi "**DTX, XKX**," akronimləri ilə əvəz edilmişdir.

[6] 27 dekabr 2013-cü il tarixli **71** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 28 dekabr 2013-cü il, 287 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1538**)) ilə II hissənin 1-ci bəndinə, III hissənin 8-ci bəndinə, IV hissənin 13, 19, 23 və 24-cü bəndlərinə və V hissənin 39-cu bəndinə "**DSX**," akronimindən sonra "**SHXÇDX**," akronimi əlavə edilmişdir.

10 fevral 2022-ci il tarixli **1595** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 11 fevral 2022-ci il, 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 106)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda II hissənin 1-ci bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar" sütununa ikinci halda "**hazırlığını,**" sözündən sonra "**dövlət və**" sözləri, "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununa "(**bundan sonra – Fövqəladə Hallar Nazirliyi)**" sözlərindən sonra "**, Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi (bundan sonra – Dövlət Ehtiyatları Agentliyi)**" sözləri əlavə edilmişdir.

[7] 15 fevral 2016-cı il tarixli **787** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 21 fevral 2016-cı il, 40; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 251)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın II hissəsinin 4-cü (hər iki halda) və 6-cı bəndlərində, IV hissəsinin 25-ci bəndində "**Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

[8] 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın II hissəsinin 6-cı bəndində (hər iki halda), III hissənin 8-ci bəndində, IV hissəsinin 12-ci, 15-ci, 21-ci və 26-cı bəndlərində "**Sənaye və Energetika Nazirliyi**" sözləri "**Energetika Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[9] 11 noyabr 2008-ci il tarixli 13 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 19 noyabr 2008-ci il, 259, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 969**) ilə «Dövlət sirrinə aid edilən məlumatların Siyahısı»nın IV bölməsinin 12-ci bəndində **«Fövqəladə Hallar Nazirliyi»** sözlərindən sonra **«, Dövlət Mülki Aviasiya Administrasiyası (bundan sonra-DMAA)»** sözləri, 13-cü, 23-cü və 24-cü bəndlərinə **«DMAA»** sözü əlavə edilmişdir.

[10] 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840**) ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın IV hissəsinin 12-ci bəndindən "**Dövlət Mülki Aviasiya Administrasiyası (bundan sonra - DMAA)**" sözləri, 13-cü, 23-cü və 24-cü bəndlərindən "**DMAA**" abreviaturası çıxarılmışdır.

[11] 14 aprel 2009-cu il tarixli 81 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 19 aprel 2008-ci il, 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 04, maddə 226)** ilə «Dövlət sirrinə aid edilən məlumatların Siyahısı»nın IV bölməsinin 14-cü bəndində (hər iki halda) və 18-ci bəndində **«Agentliyi»** sözü **«Komitəsi»** sözü ilə əvəz edilmişdir.

[12] 10 fevral 2022-ci il tarixli **1595** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 11 fevral 2022-ci il, 31 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 106)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda IV hissənin 19-cu bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar" sütunundan birinci halda "**ehtiyatlarının**" sözü çıxarılmışdır və həmin bəndin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununa "**Fövqəladə Hallar Nazirliyi**" sözlərindən sonra "**, Dövlət Ehtiyatları Agentliyi**" sözləri əlavə edilmişdir.

[13] 3 may 2013-cü il tarixli **873** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti 4 may 2013-cü, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 494)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın IV bölməsinin 26-cı hissəsinin "IV. Dövlət sirrinə aid edilən məlumatlar" sütunundan mötərizədəki "**neft, neftlə həll olunmuş qaz**" sözləri və "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütunundan "**Dövlət Neft Şirkəti**" sözləri çıxarılmışdır.

[14] 30 oktyabr 2009-cu il tarixli **172** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 1 noyabr 2009-cu il, 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 785)** ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın "İqtisadi sahədə məlumatlar" bölməsinin 26-cı bəndində "**Sənaye və Energetika Nazirliyi**" sözlərindən sonra "**, Fövqəladə Hallar Nazirliyi**" sözləri əlavə edilmişdir.

[15] 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın IV bölməsinin 27-ci bəndinin və 29-cu bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda ismin müvafiq hallarında "**Milli Bank**" sözləri ismin müvafiq hallarında "**Mərkəzi Bank**" sözləri ilə əvəz edilmişdir.

[16] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın II hissəsinin 5-ci bəndində (hər iki halda), V hissəsinin 32-ci bəndində "**İnformasiya Texnologiyaları**" sözləri "**Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

[17] 19 dekabr 2012-ci il tarixli **768** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti 21 dekabr 2012-ci, 285, "Azərbaycan" qəzeti 22 dekabr 2012-ci, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1242 )** ilə "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın V bölməsinin 34-cü hissəsində "**Ədliyyə Nazirliyi**," sözlərindən sonra "**Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Respublika Prokurorluğu)**," sözləri əlavə edilmişdir.